# Master X Seed® 100

## Sement əsaslı materiallar üçün spesifik bərkimə sürətləndirici – kristallik sürətli bərkimə konsepsiyasının əsas komponentidir.

### MATERİALIN TƏQDİMATI

**Master X Seed® 100** – təzə sementin (6-12 saat) hidrotasiya prosesinin gücləndirilməsi üçün hazırlanmış, tərkibində nanohissəciklər olan kristallik suspenziyadır.
Unikal və innovativ kristallaşdırma texnologiyasına əsaslanmaqla, kalsium silikat hidrat əsaslı kristalların böyüməsi ciddi sürətdə sürətlənir.

**Master X Seed® 100**, aşağı ətraf mühit və hətta isti bərkimə temperaturlarında betonun bərkiməsinə kömək edir. Ənənəvi sürətləndirmə metodlarından fərqli olaraq və unikal fəaliyyət metodu sayəsində sement hissəciklərinin arasındakı kristalların maneəsiz böyüməsi, beləliklə də başlanğıc möhkəmliyin artması sürətləndirilir, bununla yanaşı yekun mikrostruktur ekvivalent və ya təkmilləşdirilmiş xüsusiyyətlərdən faydalanır.

**TS EN 934-2** standartına uyğundur.

### Kristallik sürətli bərkimə:

**Master X Seed® 100** – Master Builders Solutions kristallik sürətli bərkimə konsepsiyasının əsas komponentidir. **Kristallik sürətli bərkimə**, **Master X Seed® 100** unikal kristallaşdırma texnologiyasının təklif etdiyi dəyər təklifini ifadə edir.

- Səmərəli proseslər;
- Enerjiyə qənaət;
- Materialın optimallaşdırılması;
- Yüksək keyfiyyətli texniki parametrlər.

Konsepsiya aparıcı sənaye tələblərinə cavab verir və bütün cari məsələlərin öhdəsindən gəlmək imkanına malikdir. Xüsusilə, konsepsiya səmərəli tikinti hədəflərinin qarşılanmasına əhəmiyyətli təkan vermək üçün hazırlanmışdır.

### TƏTBİQ SAHƏSİ:

**Master X Seed® 100** bütün beton növləri üçün, xüsusilə sürətli bərkimənin istehsalçı üçün əsas faktor təşkil etdiyi hallarda yığma konstruksiya elementləri üçün optimallaşdırılıb. **Master X Seed® 100** isti bərkimə metodlarına alternativdir və xüsusilə aşağı klinker tərkibli binderlərin istifadəsinə yardım edir.

### ÜSTÜNLÜKLƏRİ

**Master X Seed® 100** aşağıdakı üstünlükləri təklif edir:

- Aşağı ətraf mühit və hətta isti bərkimə temperaturlarında betonun bərkiməsinə kömək edir;
- İstehsal qabiliyyətinin asan tənzimlənməsi;
- İstehsal dövrələrinin artırılması. (ikiqat, üçqat dövr);
- Qəlibin daha tez sökülməsi nəticəsində qəlibdən daha yaxşı istifadə;
- Bərkimə üçün istiliyin azalması və ya ləğv olunması;
- İnvestisiyanın və bərkimə xərclərinin azaldılması;
- Tələb olunan minimum sement miqdarının istifadəsinə imkan yaradır;
- Aşağı dərəcəli, daha az klinker tərkibli sementdən istifadə etməklə və ya əlavə sement materiallarından (əhəngdaşı, kül tozu, torta) istifadənin artırılması ilə birləşdirici maddənin optimallaşdırılmasına imkan yaradır;
- Gecikmiş Ettrinqit yaranmasının daha az riski;
- Beton dayanıqlığının yaxşılaşdırılması;
- $CO^2$ buraxılmasının azaldılması vasitəsilə zavod və məhsulun ekoloji effektivliyinin yaxşılaşdırılması.

# Master X Seed® 100

## TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| Görüntü | Ağ/qoxusuz nanohissəciklər asması |
| $20^0$C-də sıxlıq | 1.135 qr/sm$^3$ |
| $20^0$C-də pH dəyəri | 11 |
| Qələvi miqdarı (natrium oksidə ekvivalent) | ≤ 3.0 m% |
| Xlorid ion miqdarı | ≤ 0.1 m% |

## TƏTBİQ QAYDASI

**Master X Seed® 100**, istifadəyə hazır, qarışdırılma prosesində betona əlavə olunan maye qarışığıdır.
Homogen yayılma üçün kifayət qədər qarışdırma müddəti təmin olunmalıdır.

## SƏRFİYYAT

Tövsiyə olunan doza nisbəti 100 kq sementə 2-4 litrdir. Xüsusi şəraitlərə əsasən istisna hallarda digər doza nisbətlərindən istifadə etmək olar. Daha ətraflı məlumat almaq üçün "**Master Builders Solutions Azerbaijan MMC"** şirkətinin texniki xidmətinə müraciət olunmalıdır.

## QABLAŞDIRMA

240 kq-lıq çəllək
1200 kq- lıq böyük çən

## UYĞUNLUQ

- **Master X Seed® 100**, Sıfır Enerji sistemi və Reodinamik beton kimi **Master Builders Solutions** əsas texnologiyaları ilə, xüsusilə aşağıdakılar ilə uyğunluq təşkil edir;
- Yüksək axıcılıq enerjisi üçün **MasterGlenium®** tipli superplas-tifikatorlar;
- Möhkəm, öz-özünə yerləşən beton üçün **MasterMatrix®** özlülük modifikasiya əlavələri;
- Donma və donu açılmaya qarşı müqavimətini artırmaq üçün, havacəlbedici **MasterAir®200** (TS EN 206-1-ə uyğun olaraq XF1-XF4 ətraf mühit şərtlərində) ilə **MasterFinish®** - rahat qəlibin sökülməsi və formanın dəyişməsi üçün.

## SAXLAMA MÜDDƏTİ

Normal saxlama şəraitində, istehsal edildiyi gündən 6 ay təşkil edir.

## SAXLAMA QAYDASI

**Master X Seed® 100**, 5°C-dən yuxarı temperaturlarda saxlanmalıdır. **Donmadan qorunmalıdır!** Əgər donarsa, yavaşca isidin və istifadədən əvvəl diqqətlə yenidən qarışdırın.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məslәhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az